# YU NESBO

# *Qanlı ay*

Tərcüməçi:
Gülnar Məmmədli

QANUN NƏŞRİYYATI

JO NESBØ

# Blodmåne

Yazıçı Yu Nesbonun "Qanlı Ay" romanı detektiv Harri Holenin cinayət araşdırmaları seriyasından növbəti kitabdır. Əsərdə həyatdan bezmiş detektiv vətənini tərk edib başqa ölkəyə köçür. Keçmişdə yaşadığı bədbəxtliklər: həyat yoldaşının yaxın dostu tərəfindən öldürülməsi, daha sonra dostunun intiharı və bütün bunların səbəbi yazıçının zəngin təxəyyülünün sözlərlə ifadəsinə çevrilib. İçkiyə aludə olaraq öz məhvinə çalışan Harri Los-Ancelesdəki bir barda mərhum anasına bənzətdiyi bir qadınla tanış olur. Bundan sonra adrenalinlə zəngin araşdırma marafonu başlayır. Harriyə mane olan həmkarları, həqiqəti üzə çıxarmaq istəyi, cinayətkarın motivi, ədliyyə nazirinin sirri və s. romanda, sanki eyni zəncirin halqasıdır. Bu halqalar bir-biri ilə bağlanaraq, sonda cinayətkarın yaxalanmasına, yaşlı qadının isə xilasına gətirib çıxarır.

*“Rəbbin möhtəşəm və dəhşətli günü gəlməzdən əvvəl
Günəş zülmətə, Ay qana qərq olacaq.*

***Yoelin kitabı 2:31***

# MÜNDƏRİCAT


PROLOQ .......... 9
I fəsil. CÜMƏ .......... 19
II fəsil. CÜMƏ. QİYMƏT .......... 30
III fəsil. ŞƏNBƏ .......... 45
IV fəsil. ŞƏNBƏ. DOVŞAN YUVASI .......... 54
V fəsil. ŞƏNBƏ. ƏQRƏB QUYRUĞU .......... 64
VI fəsil. ŞƏNBƏ. MARSDA HƏYAT .......... 70
VII fəsil. BAZAR GÜNÜ .......... 80
VIII fəsil. BAZAR GÜNÜ. TETRİS .......... 100
IX fəsil. BAZAR ERTƏSİ .......... 118
X fəsil. BAZAR ERTƏSİ. ATLAR .......... 127
XI fəsil. BAZAR ERTƏSİ. ÇILPAQ .......... 139
XII fəsil. BAZAR ERTƏSİ. VEQNERİN FIRLANAN KRESLOSU .......... 146
XIII fəsil. BAZAR ERTƏSİ. EUNE QRUPU .......... 151
XIV fəsil. BAZAR ERTƏSİ. QOXU GÜLLƏSİ .......... 160
XV fəsil. ÇƏRŞƏNBƏ AXŞAMI .......... 165
XVII fəsil. ÇƏRŞƏNBƏ AXŞAMI. SEAMASTER .......... 172
XVII fəsil. ÇƏRŞƏNBƏ AXŞAMI. BƏŞƏRİYYƏTİN ƏN MARAQLI HİSSƏSİ .......... 178
XVIII fəsil. ÇƏRŞƏNBƏ AXŞAMI. PARAZİT .......... 192
XIX fəsil. ÇƏRŞƏNBƏ AXŞAMI. ZƏNG SƏSLƏRİ .......... 203
XX fəsil. ÇƏRŞƏNBƏ .......... 214
XXI fəsil. ÇƏRŞƏNBƏ. GƏRGİNLİK ARTIR .......... 223
XXII fəsil. CÜMƏ AXŞAMI. BORC .......... 238
XXIII fəsil. CÜMƏ. SARI TAXTA .......... 253

XXIV fəsil. CÜMƏ. HANNİBAL ........ 271
XXV fəsil. CÜMƏ. KOKAİN BLUZU ........ 276
XXVI fəsil. CÜMƏ. SEMENT ........ 285
XXVII fəsil. ŞƏNBƏ ........ 293
XXVIII fəsil. ŞƏNBƏ. SON PƏRDƏ ........ 304
XXIX fəsil. ŞƏNBƏ. TAPETUM LUCİDUM ........ 328
XXX fəsil. BAZAR GÜNÜ ........ 334
XXXI fəsil. BAZAR GÜNÜ. BÖYÜK MƏMƏLİLƏR ........ 346
XXXII fəsil. BAZAR GÜNÜ. ORANQUTAN ........ 359
XXXIII fəsil. BAZAR ERTƏSİ ........ 372
XXXIV fəsil. BAZAR ERTƏSİ. TRANS-AVROPA EKSPRESİ ........ 386
XXXV fəsil. ÇƏRŞƏNBƏ AXŞAMI ........ 401
XXXVI fəsil. ÇƏRŞƏNBƏ GÜNÜ ........ 412
XXXVII fəsil. ÇƏRŞƏNBƏ. REFLEKS ........ 426
XXXVIII fəsil. CÜMƏ AXŞAMI ........ 440
XXXIX fəsil. CÜMƏ AXŞAMI. BRASSİKA ........ 449
XL fəsil. CÜMƏ AXŞAMI. QORXUSUZLUQ ........ 455
XLI fəsil. CÜMƏ AXŞAMI. REAKSİYA SÜRƏTİ ........ 470
XLII fəsil. CÜMƏ ........ 490
XLIII fəsil. CÜMƏ. ALİBİ ........ 497
XLIV fəsil. CÜMƏ. MÜSAHİBƏ ........ 504
XLV fəsil. CÜMƏ. KOLLEKSİYA ........ 515
XLVI fəsil. CÜMƏ. QANLI AY ........ 524
XLVII fəsil. CÜMƏ. BLUMEN ........ 532
XLVIII fəsil. CÜMƏ. MEŞƏ ........ 545
XLIX fəsil. CÜMƏ. ÜZÜK ........ 553
L fəsil. CÜMƏ. CAVABSIZ ZƏNGLƏR ........ 561
LI fəsil. CÜMƏ. PRİM ........ 570
LII fəsil. CÜMƏ. SİRENLƏR ........ 579
LIII fəsil. CÜMƏ. AXMAQ ........ 589
LIV fəsil. CÜMƏ AXŞAMI ........ 592

# PROLOQ

– Oslo, – kişi viski stəkanını dodaqlarına yaxınlaşdıraraq dedi.

– Sevimli şəhərindir? – deyə Lüsil soruşdu.

Kişi qarşıya baxdı, cavabı düşünürmüş kimi göründü, sonra başını tərpədərək təsdiqlədi. Viski içdiyi müddət ərzində Lüsil ona diqqətlə baxırdı. Boyu hündür idi, bar stulunda oturduğu halda belə ondan xeyli uca görünürdü. O, yetmişyaşlı Lüsildən 10, bəlkə də, 20 yaş cavan idi. Alkoqoliklərin yaşını müəyyənləşdirmək çətindir. Onun üzü və bədəni, sanki taxtadan yonulmuşdu: arıq, sərt və kəskin idi. Solğun dərisi, burnunda açıq-aşkar görünən göy kapilyarlar, qızarmış gözləri və rəngi solmuş cis parçanı xatırladan göz bəbəkləri ilə adamda elə bir təəssürat yaradırdı ki, onun həyatının ağır keçdiyi anlaşılırdı. Çox içib. Həyat onu diz çökdürüb. Amma elə bir o qədər də güclü sevib, çünki o, "Məxluqlar" barının daimi müştərisi olduğu gündən bəri Lüsil onun gözlərində ara-sıra közərən bir ağrı sezirdi. Sürüsündən qovulmuş, döyülmüş bir it kimi bar piştaxtasının sonunda həmişə tək olurdu. Barın sahibi Benin rekvizitor işlədiyi "Şəhər kovboyu" adlı, inanılmaz dərəcədə bərbad bir filmin çəkilişindən gətirdiyi mexaniki öküz Bronkoya bitişik otururdu. Bu, Los-Ancelesin kinodakı uğurlarını deyil, daha çox insan və maliyyə uğursuzluqlarının zibilliyi üzərində qurulduğunu xatırladırdı. Çəkilən filmlərin səksən faizdən çoxu kommersiya baxımından uğursuz olur,

zərərə düşürdü. Bura ABŞ-nin evsiz-eşiksiz insanların çox sıx yaşadığı şəhəri idi, eynilə Hindistanın Mumbai şəhəri kimi. Yollardakı tıxaclar şəhərdəki həyatı boğmağa çalışırdı, amma küçə cinayətləri, narkotik və zorakılıq da geri qalmırdı. Hər şeyə rəğmən günəş parlayırdı. Bəli, Kaliforniya, diş həkiminin otağındakı o lənətə gəlmiş lampa kimi heç vaxt sönmürdü, amansızcasına parlayır, bu saxta şəhərdəki hər cür bəzək-düzəyi, sanki gerçək almaz, həqiqi uğur hekayələri kimi göstərirdi. Kaş ki onların gerçək dəyəri bilinəydi. Lüsil kimi. Çünki o həm səhnədə olmuşdu, həm də səhnənin arxasında.

Yanında oturan kişi isə şübhəsiz, səhnədə heç vaxt olmamışdı. Lüsil bu sahənin adamlarını dərhal tanıyırdı. Amma o, eyni zamanda, səhnəyə heyranlıq, ümid və paxıllıqla baxan biri kimi də görünmürdü. Daha çox hər şeyə laqeyd birinə bənzəyirdi. Öz işi ilə məşğul olan birinə. Bəlkə, musiqiçidir? Bəlkə də, Lorel-Kanyonda zirzəmidə anlaşılmaz musiqilər bəstələyən, Frank Zappaya bənzəyən, heç vaxt tanınmamış və heç zaman da tanınmayacaq adamlardan biridir?

Bir neçə dəfə bara gələndən sonra bu yeni gələn kişi Lüsil ilə salamlaşmağa və ara-sıra söhbətləşməyə başlamışdılar, tünd içki içənlərin gəldiyi barlarda səhər ziyarətçiləri, adətən, belə edir. Amma bu gün Lüsil ilk dəfə olaraq onun yanına keçdi və içkiyə qonaq etdi. Daha doğrusu, Benin ona qaytardığı kredit kartında limiti keçdiyini üz ifadəsindən anlayanda kişinin sifariş verdiyi içkinin pulunu ödədi.

– Amma Oslo səni sevirmi? – deyə Lüsil soruşdu. – Məsələ burasındadır.

– Çətin ki, – kişi cavab verdi.